# XX əsrin son bədbin şeiri

*Kimdir döyən qapımı*
*rüzgarmı, əcəlmidir?*
*Zülmətlərdən uzanan*
*bumbuz soyuq əlmidir?*
*Günlər bir-bir tökülür*
*payız yarpağı kimi,*
*Gecə çökür aləmə*
*tabut qapağı kimi.*
*Qarlı qış gecəsinin*
*bəyaz qaranlığında,*
*ömrün axır çağında,*
*sonuncu durağında,*
*Ürək yenə aldanır*
*bir ümid sorağında*
*sanki novruzgülütək*
*açacaq məzar üstə*
*qalaqlanmış əklillər.*
*Sanki gedər-gəlməzdən*
*Bir də geri dönəcək*
*Əriyib itən illər.*
*Gecələr xatirələr*
*Ulduzlartək sayrışır.*
*Tale ötən günlərlə*
*Gah küsür, gah barışır.*
*Xatirələrdir ancaq gecələr bizə qalan,*
*Sonra səhər açılır -*
*həyat adlı bir yalan.*

*dekabr 2000*



Toğrul Nərimanbəyov. Anarın portreti

# XXI əsrin ilk nikbin şeiri

*Keçib getdi yüz il, min il,*
*keçib getdi on il, son il,*
*keçib gedir son ay, son gün, son dəqiqə,*
*son saniyə,*
*əsim-əsim əsir səsim, axı əsir səsim niyə?*
*Mən əsrimin əsiriyəm,*
*Mən əsrimin əsəriyəm.*
*Duyğularım, fikrim, hissim,*
*nəyim yoxdur, nəyim vardır*
*- bu yüz ildən yadigardır.*
*Tərk edirəm İyirmini,*
*Tərk edirəm iki mini,*
*tərk edirəm vətən kimi.*
*Ümidimi, həsrətimi*
*yeni əsrə daşıyıram.*
*Düşmənlərin acığına*
*yaşamışam, yaşayıram*
*İyirmi Bir*
*- yeni vətən*
*Minillərin sərhədini mən aşacam,*
*Yaşamışam, yaşayıram, yaşayacam.*

*31 dekabr 2000*



Tahir Salahov. Anarın portreti

# Yaşamaq zamanı, yazmaq zamanı

***Hər sözün, hər işin var öz dövranı,***
***Çətin ayırasan yaxşı-yamanı.***
***Yazıçı ömrünün iki vaxtı var -***
***Yaşamaq zamanı, yazmaq zamanı.***

***Qələmim yoruldu, yolundan azdı,***
***Dünyanın dərdi çox, sevinci azdı.***
***Tale acısını alnıma yazdı***
***Yaşamaq zamanı, yazmaq zamanı.***

***Həyat çərçivəsi nə yaman darmış,***
***Uzun illərin də bir sonu varmış.***
***Yaşamaq zamanı bitmiş, qurtarmış,***
***Çatmış yaşamaqdan yazmaq zamanı.***

*28 mart 2012*

---

*Xüsusi buraxılışın hazırlanmasında Əmin Əfəndiyevin və Zakirə Əliyevanın tərtib etdikləri "Çağdaşları Anar haqqında" və Anarın "Əsrin əsiri" kitablarından istifadə olunmuşdur.*